# İngilis və Azərbaycan dillərində yer budaq cümləli tabeli mürəkkəb cümlələrin intonasiya xüsusiyyətləri

***Mehriban Akif qızı Mahmudova***
***baş müəllim ADPU,Xarici Dillər Mərkəzi***
***e.mail mahmudova.mehriban@list.ru***

**Xülasə**

Bu məqalə ingilis və Azərbaycan dillərində yer budaq cümləli tabeli mürəkkəb cümlələrin intonasiya xüsusiyyıtləri haqqındadır.Hər bir konkret cümlə özünün səs tərkibi və heca strukturu ilə xarakterizə olunur.İntonasiya linqvistik bir anlayış kimi dilçilikdə əsasən iki mənada-dar və geniş izah edilir.Xarici dilçilərin əksəriyyəti cümlə vurğusu və melodiyanı biri digərindən ayıraraq,onları ayrıca fonetik-fonoloji hadisə kimi izah edirlər.Xarici dilçilikdə intonasiya anlayışı melodiya anlayışı ilə eyniləşdirilir.İngilis və amerikan fonetistləri intonasiyanın səs tonunun dəyişməsi-qalxması və enməsi kimi izah edirlər. Nitq intonasiyası mürəkkəb bir dil anlayışıdır.Onun funksiyaları mürəkkəbdir.İntonasiyanın canlı nitqdəki ən mühüm xidməti onun sintaktik funksiya daşımasıdır.Bu funksiya vasitəsilə nitqimiz bütöv cümlələrə və sintaqmalara parçalanır. Azərbaycan dilçiliyində bu məsələ ilə məşğul olmuş alimlərdən A.Axundov,S.Babayev, F.Veysəlov intonasiya anlayışını yalnız melodiyanı deyil, cümlə vurğusunu,nitqin tempini,tembri,ritmi,fasiləni və s.komponentləri də daxil edir və onu bu komponentlərin qarşılıqlı birliyi və mürəkkəb dəyişməsi kimi izah edirlər.

**Açar sözlər:**intonasiya, linqvistik, fonetik, sintaqma, tembr, temp

## Особенности интонации в сложноподчинённых придаточных предложениях места в английском и азербайджанском языках

**Мехрибан Акиф гызы Махмудова**
**старший преподаватель АГПУ**
**центр иностранных языков**
**e-mail: mahmudova.mehriban@list.ru**

**Резюме**

Эта статья об особенностях интонации в сложноподчинённых придаточных предложениях места, в английском и азербайджанском

языках. Каждое конкретное предложение характеризуется своим языковым составом и структурой слова. Интонация, как лингвистическое понятие в языкознания толкуется в двух значениях: узком и широком.

Большинство иностранных языков отделяя ударение и мелодию предложения, дают толкование как отдельное фонетик-фонологическое событие. В иностранном языкознании понятие интонации и понятие мелодии отождествляется. Интонация, как разъясняют английские и американские фонетисты — это изменение звуковой тональности посредством повышения и понижения (голоса). Речевая интонация является сложным языковым понятием. Её функции сложные. Важной особенностью интонации в живой речи является её синтаксическая функция. Благодаря этой функции наша речь делится на предложения и синтагмы.

В азербайджанском языкознании этой темой занимались такие азербайджанские учёные как А.Ахундов, С.Бабаев, Ф.Вейсалов, которые считают, что понятие интонации это не только мелодия, но и ударное предложение, темп речи, тембр, ритм, пауза и др. компоненты, всё это в месте взятое составляет сложный процесс смены интонации.

**Ключевые слова:** интонация, лингвистический, фонетический, синтагма, тембр, темп.

## Intonation peculiarities of the subordinate close of place in the english and azerbaijani languages

**Mehriban Mahmudova Akif**
**head teacher ASPU,Centre of Foreign Languages**
**e-mail: mahmudova.mehriban@list.ru**

**Summary**

This article is about the intonation peculiarities of complex sentences with subordinate clauses of place in the English and Azerbaijani languages. Each concrete sentence is characterized by its sound composition and syllable structure. In foreign linguistics, the concept of intonation is equated as a concept in two meanings: narrow and wide. Foreign linguists explain intonation as a change in the tone of the intonation. Speech intonation is a complex language concept. Its functions are complex. The most important function of intonation in live speech is that it has a syntactic function. Through this function, our speech is broken down into whole sentences and syntagms. A.Akhundov, S.Babayev, F.Veysalov, who studied this issue in Azerbaijani linguistics, include the concept of intonation not only in melody, but also in

sentence accent, tempo, timbre, rhythm, pause, etc., and it is called the interaction of these components and explain it as a complex change.

**Key words:** ***intonation, linguistics, phonetics, sintagma, timbre, tempo.***

**Aktuallıq.** Hər bir dilin grammatikası iki böyük bölməni –morfologiya və sintaksisi əhatə edir.İstər ingilis, istərsə də Azərbaycan dillərində sintaksisin tədqiqat obyekti haqqında dilçilər arasında fikir eyniliyi olmamış,daima mübahisə doğuran problemlər meydana çıxmışdır.Elə buna görə də professor O.Musayev özünün "İngilis dilinin qrammatikası"kitabında bu haqda belə yazır: "Qrammatikanın bu bölməsi ilə əlaqədar olaraq mövcud olan nəzəri problemlərdən biri olan mövzusu məsələsidir.Bu məsələdədə dilçilər arasında mübahisə getməkdədir. Bəzi dilçilər belə hesab edir ki,sintaksis yalnız cümlə məsələsindən bəhs etməlidir,digər dilçilər isə göstərirlər ki söz birləşməsi,həm də cümlə sintaksisin obyekti olmalıdır (10,s.22). Dilçilik ədəbiyyatından aydın olur ki,əksər dilçilər söz birləşmələrinin və cümlənin sintaksisin tədqiqat obyektini təşkil etməsi fikrini irəli sürürlər (Tomson A.C.Marlini, Blox M. Y. Musayev O və s.). Eyni fikir Azərbaycan dilinə həsr olunmuş qrammatika kitablarında da qeyd olunub (Abdullayev Ə, Şirəliyev və başqaları). İngilis dilində sintaksis-cümlə problemindən bəhs edən B.İlyiş özünün "The Structure of Modern English"kitabında cümlə probleminə olan münasibətini belə izah edir:"Syntax is the part of grammar which treats of phrases and sentences"(19,s.5). Ümumiyyətlə, hər iki dilin tədqiqatçıları cümləyə müxtəlif təriflər vermişlər. Onlardan bəziləri cümləni "bitmiş fikir ifadə edən,bir və ya bir neçə sözün birləşməsi", bəziləri "müəyyən qrammatik quruluşa və intonasiyaya malik olan,nisbətən bitmiş fikir ifadə edən nitq vahidini cümlə adlandırır.

İngilis və Azərbaycan dillərində yer budaq cümləli tabeli mürəkkəb cümlələrin aksent-metodik quruluşunu eksperimental tədqiqat əsasında öyrənməkdir. Yer budaq cümləli tabeli mürəkkəb cümlələrin intonasiya strukturu,obyekti isə nəzərdən keçirilən ingilis və Azərbaycan dilləridir.

Bununla ifadə edilir ki,ingilis və Azərbaycan dillərində yer budaq cümləli tabeli mürəkkəb cümləər ilk dəfə olaraq müqayisəli şəkildə tədqiq edilir və onların aksent-struktur quruluşu eksperimental-tədqiqat metodunun köməyilə öyrənilir.

**Annotasiya.** Intonasiya komponentlərinin yuxarıdakı izahından belə bir nəticəyə gəlmək olar ki, şifahi nitqin akustik cəhətdən ifadə vasitələri müxtəlif və rəngarəngdir.Deməli, canlı nitqin mühüm komponenti olan intonasiya melodiyanın (səs tonunun) yüksəlib-alçalmasından, fonosiya zamanı səs gücünün artıb-azalmasından, müxtəlif fasilələrin işindən,ümumi tempdə ayrı-ayrı ünsürlərin nisbi uzunluqlarından və müxtəlif temperal xüsusiyyətlərdə yaranan mürəkkəb bir dil hadisədir. Cümlənin və sintaqmın deyilişində bütün

bu ünsürlər sıx qarşılıqlı və mürəkkəb bir əlaqədə çıxış edirlər.»İntonasiya bir ünsiyyət vasitəsi kimi dilin bir sahəsini təşkil edir.O,ünsiyyətin xarakteri ilə, gerçəkliyin məzmunu və ya mətni ilə müəyyən edilir,cümlənin leksik tərkib və qrammatik quruluşu ilə bir vəhdətdə təzahür edir.

**Metod.** Məqalədə İngilis və Azərbaycan dillərində yer budaq cümləli tabeli mürəkkəb cümlələrin intonasiya xüsusiyyətləri tətbiq olunur.

**Giriş:**

Hər bir konkret cümlə özünün səs tərkibi və heca strukturu ilə yanaşı müəyyən prosodik,yaxud intonasiya strukturu ilə də xarakterizə olunur.İntonasiya linqvistik bir anlayış kimi dilçilikdə əsasən iki mənada-dar və geniş izah edilir.Xarici dilçilikdə intonasiya anlayışı melodiya anlayışı ilə eyniləşdirilir.Xarici dilçillərin əksəriyyəti cümlə vurğusu və melodiyanı biri digərindən ayıraraq,onları ayrıca fonetik-fonoloji hadisə kimi izah edirlər.İngilis və amerikan fonetistləri (D.Couns, L.Armstronq,və A.Uard, K.Payk, R.Kinqdon,A.Qimson və s.) intonasiyanın səs tonunun dəyişməsi-qalxması və yenməsi kimi izah edirlər.

Bununla yanaşı xarici dilçilərdən bir qrupu (L.Haltzen, K.Danesi, D.Kristal) intonasiya-anlayışına səsin ucalığını(loudness),uzunluğunu(duration), intensivliyini (intensiv), tonları, səs diapazonunu və ritmi daxil edirlər. Ümumiyyətlə,xarici dilçilər intonasiya anlayışına dar məna baxımından yanaşırlar,onun ancaq bir komponentdən ibarət olması fikrini irəli sürürlər.

Azərbaycan dilçiliyində bu məsələ ilə məşğul olmuş alimlərdən A.Axundov, Ə.Dəmirçizadə, S.Babayev, F.Veysəlov intonasiya anlayışını daha geniş mənada izah edirlər.Onlar intonasiya anlayışına yalnız melodiyanı deyil,cümlə vurğusunu, nitqin tempini,tembri,ritmi, fasiləni və s.komponentləri də daxil edir və ona bu komponentlərin qarşılıqlı birliyi və mürəkkəb dəyişməsi kimi izah edirlər.Praktik baxımdan bu komponentlər:ayrılıqda götürüb izah və təhlil etmək,lakin funksional baxımdan onlardan birini digərlərindən ayırmaq mümkün deyil.Nitq axınında bu komponentlər birgə qarşılıqlı əlaqədə çıxış edirlər.

Nitq intonasiyası mürəkkəb bir dil anlayışıdır.Onun funksiyaları mürəkkəbdir. İntonasiyanın canlı nitqdəki ən mühüm xidməti onun sintaktik funksiya daşımasıdır.Bu funksiya vasitəsilə nitqimiz bütöv cümlələrə və sintaqmalara parçalanır. İntonasiya vasitəsilə müxtəlif xarakterli,kommunikativ tipli cümlələr, onların hissi-emosional boyaları ifadə edilir. Onun daşıdığı məna,ifadə edən tərzi, danışanın mövcud şəraitə,müsahibələrinə,söhbətin mövzusuna və s.olan münasibətindən asılı olaraq müxtəlif intonasiya tipləri yaranır.

İntonasiyanın fiziki xüsusiyyətlərindən bəhs edərkən hər hansı bir cümlə və sintaqmın tələffüzü zamanı eşidilən və qavranılan momentlərin-əsas tonun səslənmə müddətini, bu müddət ərzində dəyişən rəqslərin tezliyi və

intensivliyini, həmçinin ümumı səs axınının enerjisini xarakterizə etmək lazımdır.Bu ünsürlərin vəhdətindən müxtəlif kommunikativ tipli cümlələr onların modallıq,predikativlik və müxtəlif hissi-emosional növlər ifadə edilir.

Nitq intonasiyasının,fiziki xassələrindən bəziləri birinci dərəcəli, bəziləri isə ikinci dərəcəli rol oynayır.Birinci dərəcəli fiziki xassələr-əsas tondakı rəqslərin tezliyi, həmin rəqslərin qüvvəsi və gərginliyi, tələffüzün ümumi enerjisi və bunlara sərf edilən zaman vahidi,ikinci dərəcəli fiziki xassələr-səsin ümumi tezliyi (temp), gücü, dəyişən diapazonlar və səs fasilələridir.İntonasiyanın birinci dərəcəli fiziki xassələri nisbi və dəyişkən, ikinci dərəcəli fiziki xassələri isə ümumiyyətlə sabit olur.Göstərilən bu fiziki xassələr bir-birindən qarşılıqlı surətdə asılı olub, nitqdə müəyyən bir strukturanın əmələ gəlməsində nisbi surətdə iştirak edir.

İntonasiyanın fizioloji-akustik xüsusiyyətəri onun qavranılan müxtəlif kefiyyətlərini yaradır və onlar dildə müxtəlif cümlə tiplərini (nəqli, sual, əmr və s.) və növlərini ayırd etməyə imkan yaradır.Yəni, hər hansı bir xarici dili məzmunca başa düşməsək də,intonasiyanın qavranılan məlum kefiyyətinə görə həmin dildə tələffüz edilən cümlə tipini və ya növünü təyin edə bilərik.

Beləliklə, sırf fiziki ünsürlər dil sistemini yaradan əsas vasitə ola bilməz.Lakin beynimizdə mövcud olan ikinci siqnal sistemi dildə leksik-qrammatik vasitələr kimi həmin fiziki xassələrin axınına daxil olandan sonra müəyyən bir fikir ifadə olunur, nitq-ünsiyyət prosesi yaranır.Deməli,ikinci siqnal sistemini müəyyən leksik-rammatik sistem şəklində zahirə çıxaran intonasiyanın fiziki xassələri,onları əmələ gətirən isə belə ki, fizioloji-psixoloji proses olur.Bundan belə bir nəticəyə gəlmək olar ki, müəyyən intonasiya malik nitq vahidləri dil sistemlərinin fizioloji-akustik amilləri ilə birgə, qarşılıqlı fəaliyyət şəraitində əmələ gəlir. Belə bir mürəkkəb prosesi hərəkətə gətirən və idarə edən mexanizmi mərkəzi sinir sistemində mövcud olan müvafiq mərkəzlərdir.

Nitq intonasiyasının funksional əlamətləri isə onun dildə ifadə etdiyi kommunikativliklə-cümlə tiplərini və növlərini, bu cümləlrin ifadə etdikləri modallıq,predikativlik,emosionallıq,müəyyənlik və s.ilə təyin edilir, məhz buna görə də belə mürəkkəb prosesi ifadə edə bilən intonasiya ilə tonu eyniləşdirmək olmaz.Ton intonasiyanın mürəkkəb konturunu təşkil edən mürəkkəb vasitələrdən biridir.İntonasiya isə tonun və ya melodiyanın, cümlə vurğusunun, tempin, tembrin və fasilənin mürəkkəb əlaqəsindən və qarşılıql təsirindən yaranan keyfiyyətdir.

«Cümlənin bu və ya digər bir kommunikativ tipə (təsdiq,sual və s.ifadə edən) aid olması onun məzmunu və funksiyası ilə müəyyənləşir və canlı nitqdə leksik,qrammatik və müxtəlif intonasiya ünsürlərin müəyyən qarşılıqlı təsiri sayəsində aydınlaşır»(20,s.214). Cümlədə kommunikativliyə xidmət edən müxtəlif funksional vasitələr (modallıq, predikativlik, ekspressivlik ,

delimitativlik və determinativlik) intonasiya komponentlərinin qarşılıqlı fəliyyətindən doğur.İntonasiyanın əsas komponentləri isə aşağıdakılardır.

1.Melodiya-sintaqmı və ya cümləni tələffüz edərkən səsin ucalıb-alçalmasına ( əsas tonu qalxıb yenməsinə) deyilir.Cümlənin tələffüzündə melodiya semantik-sintaktik rol oynayır.O,intonasiyanın başlıca tərkib hissələrindən biri olmaqla nitqdə təsdiq,sual,əmr, nida və s.cümlə tiplərinin formalaşmasına xidmət edir.Eyni zamanda, melodiya komponentləri başqa komponentlərlə birlikdə qarşılıqlı fəliyyətdə nitqdə müəyyən boya emosionallığın yanaşmasına xidmət edir.

Melodiya nitq intonasiyasının,yüksəklik komponenti olub,həmin mürəkkəb hadisənin əsas aparıcısıdır.Akademik L.D.Şerbanın nöqteyi-nəzərinə görə nitq melodiyası,nitq zamanı səsin musiqili hərəkət xəttidir.”nitq melodiysı - həmin nitq parçasının bir musiqi əsəri kimi ifasının melodiyadan yalnız onunla fərqlənir ki, nitq zamanı səs bütöv və sırf glissando halında sürüşür.Lakin mahnı zamanı səs bu və ya digər qamma pilləsi üzrə xüsusi və həm də qəti ritmləri ilə hərəkət edir»( 34, s. 121).

2. Cümlə vurğusu və ya sintaktik vurğu cümlədə birgə münasibətdə olan vurğular sistemi deməkdir.Cümlə vurğusu rabitəli nitq zamanı ayrı-ayrı sözlərin mətndə seçilməsinə və müəyyən dərəcədə müstəqil məna daşıyan hər hansı bir nitq parçasının (sintaqm və ya cümlənin) təyin edilməsinə xidmət edir.Cümlə vurğusu eyni zamanda səs tonunun və hecada uzunluğun dəyişməsi ilə də ayrılmaz surətdə bağlıdır.Lakin o, söz vurğusu kimi, müəyyən ciddi tələffüzün ənənələrindən asılı deyildir.

3.Nitqin tempi onun hər hansı bir vahidinin tələffüzünə sərf olunan vaxtla ölçülür.Nitq axınının orta tempini təyin etmək üçün bir saniyə ərzində tələffüz edilən hecaların sayını təyin etmək lazımdır.Nitqin tempi təkcə danışan şəxsin nitqindəki fərdi xüüsusiyyətlərdən deyil,həm də tələffüz edilən nitq parçasını məzmunundan asılıdır.Müəyyən nitq parçasında mühüm ünsürlər köməkçi ünsürlərdən fərqli-tələffüz olmurlar.Belə ki, vurğulu sözlər, xüsusilə məntiqi və sintaqma ilk vurğulu sözlər, zəif vurğulu və vurğusuz sözlərə nisbətən bir qayda olaraq aydın tələffüz edilir.Bununla bərabər, cümlədə əsas məna mərkəzini təşkil edən sintaqmlar, həmçinin mətndə əsas fikri əks etdirən cümlələr başqalarına nisbətən daha yavaş templə deyilir.Lakin, bunun əksinə, ara sözlər, ara cümlələr və vasitəsiz nitq zamanı müəllif sözləri əsas məna ifadə edən parçalara nisbətən zəif vurğu ilə çox sürətli bir templə tələffüz edilir.

Yüksək templə tələffüz olunan nitq parçasında vurğusuz hecalardakı səslər,xüsusilə saitlər kəmiyyətcə azalır və hətta düşə bilir.Bu hadisə nitq intonasiyasında müəyyən tələffüz sistemi yaradır.Deməli, intonasiya nitqdə stilistik xarakter də kəsb edir.

4.Nitqin tembri səsin yüksəklik, intensivlik və uzunluq tərəflərilə bərabər, nitq axınında səslənmə boyaları kimi başa düşülür.Hər hansı bir səs,xüsusilə

sait, sonant və cingiltili samitlər nitq axınında müxtəlif vəziyyətlərdə akustik cəhətdən fərqli xüsusiyyətlərə malik olur.Nitq səslərinin belə rəngarəngliyi rezonatların həcmləri və aldıqları formalardan irəli gəlir.Başqa sözlə tembr mürəkkəb bir səsin spektrinin təşkil edən müxtəlif şəxslərin nitqlərindəki xarakterik xüsusiyyətləri fərqləndirən mühüm fizioloji-akustik əlamətdir.

5.Fasilə - danışıq zamanı nitq cihazının öz fəaiyyətini müvəqqəti olaraq dayandırılması deməkdir. Danışıqda fasilə əsas etibarilə iki prosesə xidmət edir:1) nitq zamanı tələffüzünü anatomo – fizioloji nümunə; 2) müəyyən fonetik ( fonosemantik) vahidlər arasındakı sədlərin müəyyən edilməsinə.

Beləliklə, intonasiya komponentlərinin yuxarıdakı izahından belə bir nəticəyə gəlmək olar ki, şifahi nitqin akustik cəhətdən ifadə vasitələri müxtəlif və rəngarəngdir.Deməli, canlı nitqin mühüm komponenti olan intonasiya melodiyanın (səs tonunun) yüksəlib-alçalmasından, fonosiya zamanı səs gücünün artıb-azalmasından, müxtəlif fasilələrin işindən,ümumi tempdə ayrı-ayrı ünsürlərin nisbi uzunluqlarından və müxtəlif temperal xüsusiyyətlərdə yaranan mürəkkəb bir dil hadisədir. Cümlənin və sintaqmın deyilişində bütün bu ünsürlər sıx qarşılıqlı və mürəkkəb bir əlaqədə çıxış edirlər.»İntonasiya bir ünsiyyət vasitəsi kimi dilin bir sahəsini təşkil edir.O,ünsiyyətin xarakteri ilə, gerçəkliyin məzmunu və ya mətni ilə müəyyən edilir,cümlənin leksik tərkib və qrammatik quruluşu ilə bir vəhdətdə təzahür edir»(15, s.10).

Beləliklə də, nitq intonasiyası fizioloji-akustik material əsasında müəyyən sintaktik vəzifə daşıyır.Bu, o deməkdir ki, müəyyən kommunikativlik məqsədlə rezonatorların nitq səsləri yüksək dərəcədə mütəşəkkil və səlis bir sistem kimi müvafiq komunikativ xətt boyu səslənir.

Kommunikativ istiqamətinə görə intonasiyanın üç növü məlumdur yenən,qalxan və düzxətli (neytral).Bunlardan hər birinin özünəməxsus xarakterik xüsusiyyətləri və vəzifələri vardır.

Düşən və yaxud yenən melodiya adətən cümlənin sonuncu sintaqmında işlənir və əsasən,bitkinlik siqnalı verir.Sintaqmın müxtəlif leksik məzmunu və qrammatik quruluş ilə əlaqədar olaraq, düşən metodik kontur eyni kommunikativ istiqamətin daha xırda növlərini ifadə edə bilir.

2.Yenən melodiyalı sintaqmaların əksəriyyəti xüsusiləşmə və məzmun müstəqilliyi ifadə edir.Həmin kateqoriyaya nəqlilik,qətilik bildirən hökm və məlumat,təsdiq və inkar cavab deyil,nida,bəyanat,əmr və əmr formalı təhrikedici xahiş və s.şamil edilə bilər.

Məs:You will have to attend a very agent matter.

Yenən melodiya təksintaqmlı sual əvəzlikli xüsusi sual cümlələrində də işlədilir.Çünki bu möv sual cümləlrində şəxs,əşya,yer,zaman,səbəb vəs.haqqında az-çox qəti məlumat tələb edilir.Bu da, əslində onların kommunikativ məqsədini melodiya vasitəsilə ifadə etməyə xidmət edir.Məs:

Where did you spend last night? Who has sent this letter?

Belə cümlələrdə tonal səviyyənin yenməsi labüddür, çünki son hecada səs intensivliyinin azalması elektro-akustik göstəricidə ton səviyyəsinin neytral xətdən aşağı yenməsi kimi müşahidə edilir. Düzxətli melodiya ilə səslənən sintaqmları müəyyənləşdirənə əsas əlamət ya fiziki fasilə, ya da digər fonetik vasitələrin köməyi ilə ritmik xüsusiləşmə ola bilər.

Düzxətli melodik kontura malik sitaqmlarla fonetik formalaşma o qədər də qabarıq şəkildə olmur, çünki bunlara geniş diapazonlu başlanğıcdan sonra sönük neytral və qeyri-müəyyən bir final gəlir.Müxtəlif sintaktik quruluşlar ilə işlənən həmin metodikdir adətən dərin daxili təəssuratdan doğan fikri ifadə etməyə xidmət edir.Bu zaman danışan heç kimə müraciət lirik xarakterli poeziya əsərlərinin ifasındakı ənənəvi üsluba xas olan bir ahəngdir.Sintaqmın belə bir deklamasyon ifası zamanı işlənən belə bir metodik sonluq poetik boyaları və obrazları xəyalımızda canlandırmaq xüsusiyyətinə malikdir. Məs:

Sweet and low/sweet and low,
Wind of the western sea,
Over the rolling waters go
Come from the dying moon and bliow.

Yuxarıda qeyd edilənlərlə yanaşı,şübhəsiz,melodiya modal-emosional,ritmik və spesifik musiqiçilik funksiyalarını da daşıyır.Bütün funksiyalar,eyni zamanda,bir-birilə qarşılıqlı vəhdət təşkil edir.

İngilis və Azərbaycan dillərinin tədqiqinə həsr olunmuş ədəbiyyatda cümlə problem ən başlıca tədqiqat obyekti olmuş və bu gün də bu sahədə iş davam etdirilir.Ə.Abdullayev və başqaları tərəfindən yazılmış «Müasir Azərbaycan dili (sintaksis)» kitabında cümləyə belə tərif verilir:»Cümlə hər bir dilin qanunları əsasında qrammatik cəhətdən formalaşan və bitmiş fikir ifadə edən nitq vahididir»(1,s.99).Əlbəttə,bu problem bizim təqdiqat obyektimiz olmadığından bu məsələyə geniş yer verməyə lüzum görmürük,lakin bununla əlaqədar professor O.Musayevin aşağıdakı fikrini şərh etməyi lazım bilirik:»….indiyə qədər cümlə nədir? sualına cavab verilməmişdir».Və sonra o,cümləyə belə bir tərif verir: » …..müəyyən qrammatik quruluşu və intonasiyaya malik olan,nisbətən bitmiş fikir ifadə edən nitq vahidinə cümlə deyilir» (9,s.231).

Bu tərifdən aydın olur ki, o, əvvəlki dilçilərdən fərqli olaraq cümlənin yaranmasında intonasiya faktorunu da qeyd edir.Deməli,istər ingilis, istərsə də Azərbaycan dilində cümlənin yaranmasında iştirak edən leksik və qrammatik faktorlar kimi fonetik faktor da həlledici rol oynayır.

1.Birinci vurğulu hecaya qədər olan bütün vurğusuz və yarıvurğulu hecalar takt önü adlanır.Əgər takt önünü təşkil edən vurğusuz hecalar aşağı diapazonunda və yaxud şkalaya və nüvəyə qədər tədricən qalxaraq tələffüz edilərsə,belə takt önü aşağı səviyyəli takt önü (A low pre-head) adlanır.

Məs:

But he isn't like the other boys here

Low pre-Head

Yüksək səviyyəli takt önü (High pre-Head) isə vurğusuz hecaların yuxarı səs diapazonunda tələffüz edilməsi ilə səciyyəvidir.
Məs:

But in her hand I found a piece of dirty paper.

High Pre-Head

2.İlk vurğulu hecadan sonuncu vurğulu hecaya qədər olan bütün vurğulu və vurğusuz hecalar şkala adlanır.Dilçilik ədəbiyyatında şkalanı aşağıdakı növlərindən danışılır:

a) Pilləli şkala (Stepping head).Şkalanın bu növündə vurğulu heca yuxarı səs diapazonundan başlayır və pillə-pillə tədricən nüvəyə qədər yenir.Məs:

Then why can't you stay?

Bu növ şkalada vurğulu hecalar arasındakı vurğusuz hecalar özlərindən əvvəlki vurğulu heca səvviyyəsində tələffüz edilir.

2.O.Konnor və F.Arnold «Intanation of Colloguial English» kitabında şkalanın yeni bir növü-Yüksələn şkala(High Head)-haqqında danışır və göstərirlər ki,bu tip şkalada həm vurğulu,həm də vurğusuz hecalar eyni səviyyəli yüksək diapazonda tələffüz edilirlər.
Məs:

Where can I find this woman?

3.Açalan şkala (Jow Head).Bu tipli şkalada ilk vurğulu heca aşağı diapazonda başlayır və nüvəyə qədər bütün vurğulu və vurğusuz hecalar aşağı diapazonda tələffüz edilir.Məs:

I trust you found her well.
Who is going to pay for it?

4.Qalxan şkala (Rising-Head).Bu növ şkala aşağı diapazondan başlayır və nüvəyə qədər tədricən qalxır.Məs:

How did you manage to go that?

5.Sürüşkən şkala (Sliding-Head).Belə şkalada vurğulu hecalar tədricən,vurğulu hecalar arasındakı vurğusuz hecalar isə sanki tullanaraq (jumpy) yenirlər.Məs: I knew you hadn't finished it.

Məlumdur ki, mürəkkəb cümləni təşkil edən komponentlər bir-birilə qarşılıqlı əlaqədə olur və bu səbəbdən də onların bir-birinə bağlılıq dərəcəsi də müxtəlif olur.Bu xüsusiyyətinə görə mürəkkəb cümlənin iki növü-tabesi mürəkkəb cümlə və tabeli mürəkkəb cümlə bir-birindən fərqləndirilir.

Tabeli mürəkkəb cümlə bir neçə müxtəlif cümlələrin birləşməsindən əmələ gəlir,müəyyən qrammatik vasitələr, məna əlaqələri və intonasiya ilə müşayət edilir.

Tabeli mürəkkəb cümlə isə qrammatik chətdən biri üstün müstəqil, digəri isə ondan asılı, ona tabe olan cümlələrdən təşkil olunmuş mürəkkəb sintaktik bütövdür.

Bizim tədqiqatlarımızın məqsədi bütövlükdə tabeli mürəkkəb cümlələrin yox,onun növlərindən yalnız birinin-yer budaq cümləli tabeli mürəkkəb cümlələrin intonnitqinasiya xüsusiyyətlərini tədqiq etmək olduğu üçün biz magistr dissertasiyasında yalnız həmin problemlə əlaqədə işləmiş və həmin növ budaq cümlənin aksent –melodik quruluşu öyrənmək üçün eksperimental-tədqiqatdan istifadə etmişik.

**Nəticə.**İngilis və Azərbaycan dillərinin materialları əsasıda aparılan eksperimental nəticələri və onların təhlili bizə hər iki dildə yer budaq cümləli tabeli mürəkkəb cümlələrin intonasiyasında baş verən dəyişiklikləri,onların oxşar və fərqli cəhətərini aşkar etməyə imkan yaratdı.Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir.

1.Yer budaq cümləli tabeli mürəkkəb cümlənin komponentləri arasında daha çox məna asılılığı özünü göstərir ki,bu da onların aksent melodik quruluşuna ciddi təsir göstərir.

2.Budaq cümlə baş cümlədən əvvəl gəldikdə,budaq cümlə qalxan,baş cümlə isə düşən tonla tələffüz edilir.

3.Baş cümlə budaq cümlədən əvvəl işləndikdə isə həm baş,həm də budaq cümlə düşən tonla tələffüz edilir.

Əgər ön mövqedə işlənən baş cümlə fikrin davamını nəzərdə tutursa bu halda baş cümlə qalxan tonla tələffüz edilir.

Azərbaycan dilində isə birinci komponent qalxan,ikinci komponent isə düşən tonla tələffüz edilir.

4.İngilis dilində baş cümlədən əvvəl işlənən budaq cümlə bəzən orta səviyyəli düzxətli neytral tonla da tələffüz edilir.

5.Baş cümlədən əvvəl işlənmiş budaq cümlə dinləyicinin diqqətini cəlb etmək,onda söhbətə maraq yaratmaq məqsədilə düşüb-qalxan tonla tələffüz edilir.

6.Baş cümlədən sonra budaq cümlələr konteksdən,danışanın məqsədindən və s.asılı olaraq alçaq qalxan və düşüb-qalxan tonla da tələffüz oluna bilər.

7.Baş cümlədən sonra gələn yer budaq cümləsi qısa olduqda sitaqmalara ayrılmır və hər iki komponent bir sintaqmda tələffüz olunur.

8.Sintaqmlar qovuşuğunda interval müsbətdir.

9.Baş cümlə sitaqmı budaq cümlə sintaqmına nisbətən qüvvətli olur.

10.İngilis dilində birinci komponenti qalxan tonla deyilən cümlələrdə intensivlik ikinci komponentdəkindən xeyli çoxdur.Hər iki komponenti düşən tonla deyilən cümlələrdə isə intensivlik təxminən bərabərdir.

11.Birinci komponenti qalxan tonla deyilən cümlələrdə birinci komponendə əsas tonun tezliyi ikinci komponentdəkindən xeyli çoxdur (340-

394/260-206).Birinci komponenti qalxan tonla tələffüz olunan cümlələrdə isə bunun əksinədir (360-280/379).

12.Birinci komponenti qalxan tonla tələffüz olunan yer budaq cümləli tabeli mürəkkəb cümlələrdə birinci komponentin saitlərinə sərf olunan zaman ikinci komponentdəkindən təxminən iki dəfə çoxdu (32-71.30/29).

13.Birinci komponenti düşən tonla tələffüz olunan cümlələrdə isə ikinci komponentdə sərf olunan zaman birinci komponentlə müqayisədə çox yüksəkdir.

**Ə d ə b i y y a t**


1.B.İlyish «The Structure of Modern English».1974

2.O.Musayev,»İngilis dilinin qrammatikası».Bakı,1996

3.V.Z.Konstanskaya, R.Z.Kovner,O.N.Kojevnikova,E.V.Prokofyeva «A Grammar of the English language».Leningrad,1973

4/N.A.Kobrina,E.A.Korneyeva,M.L.Qssovskaya,K.A.Qizeyeva «An English Grammar» (Syntax)

5.Ə.Dəmirçizadə «Müasir Azərbaycan dili».Bakı,1984

6.S.Cəfərov » Müasir Azərbaycan dili».Bakı,1982.